*Nizamişünaslıq 14, №1, 2026, səh. 59-64*

https://doi.org/10.59849/3006-2403.2026.1.59

***Xəyalə HÜSEYNOVA***
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA Gəncə Bölməsi, Nizami Gəncəvi Mərkəzi***
***ORCID ID: 0009-0005-6500-2095***
***E-mail: xgenceli@yahoo.com***

# NİZAMİ GƏNCƏVİ ƏNƏNƏLƏRİ KONTEKSTİNDƏ ƏLİŞİR NƏVAİ İLƏ AZƏRBAYCAN ƏDƏBİYYATI ARASINDA MƏDƏNİ VƏ POETİK İNTEQRASİYA

*Açar sözlər:* Əlişir Nəvai, Nizami Gəncəvi, Çağatay, Xəmsə, ədəbi inteqrasiya

## Giriş

Bəşəriyyətin hər bir dövründə dahi şəxsiyyətlər yalnız öz milli ədəbiyyatlarının inkişafında deyil, həm də ümumbəşəri mədəniyyətin təşəkkülündə mühüm təsir gücünə malik olmuşlar. Belə simalardan biri də XV əsr Türk-İslam mədəniyyətinin parlaq nümayəndəsi, xüsusilə Çağatay ədəbi məktəbinin banisi Əlişir Nəvaidir.

“Həyatını xalqın səadəti uğrunda mübarizəyə sərf edib, yorulmaq bilmədən çalışan Əlişir Nəvai (1441-1501) XV əsrdə çiçəklənməkdə olan özbək mədəniyyətinin ən mühüm ədəbi abidələrini yaradan qüdrətli bir sənətkardır” [Nəvai, 2004, s. 424].

XV əsrdə Herat mədəni mühitinin çiçəklənməsi Nəvainin fəaliyyəti ilə birbaşa bağlıdır. O, Sultan Hüseyn Bayqara dövründə yalnız şair deyil, həm də dövlət xadimi, himayəçi və maarifçi kimi çıxış etmişdir. Onun təşəbbüsü ilə məktəblər, kitabxanalar, elmi məclislər yaradılmış, ədəbi mühit canlanmışdır. Bu, Nəvainin mədəniyyət qurucusu kimi rolunu önə çıxarır. Əlişir Nəvai sənəti ilə xalqın səadətinə xidmət etməyi qarşısına məqsəd qoymuş, bu ideyanı əsərlərində yüksək poetik və fəlsəfi səviyyədə ifadə etmişdir. Onun ictimai məsuliyyət hissi, mədəni quruculuq fəaliyyəti və bədii istedadı onu XV əsr özbək mədəniyyətinin simvoluna çevirmişdir

Bu kontekstdə Zəhra Allahverdiyevanın “...Nəvai Şərq-islam ədəbiyyatının fəlsəfi-ideya və poeziya estetikasını milli özünüdərk və türk dil faktoru ilə daha da zənginləşdirdi” [Bədəlova, 2020, s. 292] fikri Nəvainin mədəni quruculuq missiyasının ideoloji və estetik mahiyyətini daha dərindən açır. Nəvai yalnız fiziki mədəniyyət ocaqları yaratmaqla kifayətlənməmiş, həm də türkcə yazmaqla Şərq-islam ədəbiyyatının fəlsəfi və poetik dəyərlərini milli dilin estetik gücü ilə birləşdirərək yeni bir ədəbi məkan formalaşdırmışdır. Zəhra Allahverdiyevanın bu fikri də bu yanaşmanı tamamlayır: Nəvai ideyaları sadəcə təkrarlamır, onları türkcə ifadə etməklə milli özünüdərkə əsaslanan yeni poetik və fəlsəfi məkan yaradır. Bu, onun klassik Şərq ədəbiyyatına verdiyi töhfənin yalnız məzmun deyil, həm də dilçilik aspektindən nə qədər dəyərli olduğunu sübut edir. Beləliklə, Əlişir Nəvai həm mədəniyyət qurucusu, həm də milli dilin estetik gücünü fəlsəfi ideyalarla birləşdirən nadir sənətkar kimi ümumtürk ədəbi irsində özünəməxsus yer tutur.

Onun zəngin irsi təkcə Orta Asiyada deyil, Azərbaycan ədəbi mühitində də daim diqqət mərkəzində olmuş, klassik poeziyamızın böyük sənətkarları ilə müqayisəli şəkildə araşdırılmışdır. Nəvainin bədii və fəlsəfi irsi türk milli kimlik şüurunun, sufi-mistik baxışların elmi-fəlsəfi müstəvidə ifadəsi baxımından mühüm əhəmiyyətə malikdir. Almaz Ülvi Binnətova vurğulayır ki, Nəvai ilk dərslərindən birini Azərbaycan ədəbiyyatından almış, burada ustadlıq dərsi keçmiş və nəticədə öz yaradıcılığında Azərbaycan poeziyasının incəliklərini mənimsəmişdir. Eyni zamanda, Nəvai Azərbaycan ədəbiyyatına ustadlıq etmiş, onun elmi-ədəbi yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığının önəmli səhifələrində xüsusi yer tutmuşdur [Binnətova, 2020, s. 59]. Bu, Nəvainin yaradıcılığının yalnız milli deyil, həm

də regional və ümumtürk ədəbiyyatı kontekstində əhəmiyyətini bir daha vurğulayır. Əlişir Nəvai ilə Azərbaycan ədəbiyyatı arasındakı əlaqə qarşılıqlı öyrənmə və təsir prosesini aydın şəkildə əks etdirir.

Akademik İsa Həbibbəylinin də fikrincə, Nəvai Nizami Gəncəvidən sonra, Məhəmməd Füzulidən isə əvvəl ümumtürk ədəbiyyatının zirvəsidir. Nizamini özünə ustad sayan Nəvai, Füzuli tərəfindən də böyük ustad kimi qəbul edilmişdir. Bu qarşılıqlı münasibət türk xalqlarının ortaq ədəbi köklərinin və estetik ənənələrinin nə qədər doğma və yaxın olduğunu bir daha nümayiş etdirir [Həbibbəyli, 2017, s. 4]. Onun fikri, ümumtürk ədəbi irsinin tarixi inkişaf xəttində Əlişir Nəvainin tutduğu mövqeyi daha dərindən anlamaq üçün olduqca dəyərli bir açardır. Akademik İsa Həbibbəylinin bu yanaşması yalnız üç böyük şairin, Nizami Gəncəvi, Əlişir Nəvai və Məhəmməd Füzulinin, ardıcıllıqla sıralanması deyil, həm də onların arasında ideya, estetik və dil baxımından qurulan mənəvi və poetik körpünün elmi əsaslandırılmasıdır.

Yuxarıda da qeyd etdiyimiz kimi, Əlişir Nəvainin ədəbi irsini dəyərləndirərkən həm şair kimi, həm də çoxşaxəli mədəniyyət daşıyıcısı kimi çıxış etdiyini görmək mümkündür. Bu yanaşma, Nəvainin əsərlərindəki ideya zənginliyi və dil ustalığı ilə yanaşı, onun elmi və fəlsəfi dünyagörüşünün genişliyini də ortaya qoyur. Cənnət Nağıyeva bu kontekstdə Nəvainin çoxcəhətli yaradıcılığını və intellektual gücünü yüksək qiymətləndirərək yazmışdır: "Böyük özbək şairi Əlişir Nəvai zəngin ədəbi irsi, çoxcəhətli yaradıcılığı, qabaqcıl ideyaları və bədii sənətkarlıq qüdrəti ilə dünya ədəbiyyatında şərəfli yer tutur. Əsərlərindən aydın görünür ki, o, xüsusən Yaxın Şərq xalqlarının ədəbi-fəlsəfi fikrini yaxşı mənimsəmiş, ərəb, fars və türk dillərində kitablardan ibarət zəngin kitabxana yaratmışdır" [Nağıyeva, 2001, s. 50]. Bu fikirdən çıxış edərək demək olar ki, Nəvainin əsərlərindəki ideya zənginliyi onun geniş mütaliə dairəsi və çoxdilli mədəniyyətə açıq olması ilə birbaşa bağlıdır.

Əlişir Nəvainin "Xəmsə"si türkdilli klassik poeziyanın ən möhtəşəm zirvələrindən biri kimi qiymətləndirilir. Onun bu beş məsnəvidən ibarət poetik toplusu — "Heyrətul-əbrar", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Səbai səyyar" və "Səddi-İskəndər" — yalnız estetik baxımdan deyil, həm də əxlaqi-fəlsəfi dəyəri ilə seçilir. Almaz Ülvi Binnətovanın vurğuladığı kimi, bu əsərlər beş əsrdən artıq zaman keçməsinə baxmayaraq XXI əsrdə də aktuallığını qoruyur, sevilir, müxtəlif dillərə tərcümə olunur və nəşr edilir [Binnətova, 2021, s. 55]. Nəvai bu beşlik modelini ilk dəfə türkcə tətbiq etməklə Nizami Gəncəvinin Xəmsə ənənəsini çağatay dilində yaşatmış və inkişaf etdirmişdir. Bu, onun Nizamiyə olan ustad münasibətinin konkret ədəbi ifadəsidir. Əsərlərin mövzu seçimi, struktur quruluşu və ideya ardıcıllığı Nizami Xəmsəsinin poetik ruhunu daşıyır, lakin Nəvainin özünəməxsus üslubu ilə zənginləşdirilir. Dəyərli alim Binnətovanın qeyd etdiyi kimi, bu əsərlərin XXI əsrdə də sevilməsi onların universal dəyər daşıdığını sübut edir. Nəvainin poetik dili, obrazlar sistemi və fəlsəfi baxışları müasir insanın mənəvi dünyasına da toxunur. Bu, klassik ədəbiyyatın zamanla köhnəlmədiyini, əksinə, yeni dövrlərdə yeni mənalarla yenidən doğulduğunu göstərir. Əlişir Nəvainin "Xəmsə"sinin həm klassik ənənəyə bağlılığını, həm də müasir dövrdəki aktuallığını elmi şəkildə əsaslandırır.

"Nəvai də öz sələfi Nizami kimi insana haqq yolunu göstərir, insanı mənəvi kamilliyə çağırır və bu sahədə mövcud islami-fəlsəfi konsepsiyaları özünəməxsus sənətkarlıqla davam etdirirdi. XIV-XVI əsrlərdə ümumşərq regionunda türkdilli poeziya farsdilli şeirin inkişafını üstələmişdir. Bu tarixi inkişafın gedişində özbək şairi Əlişir Nəvai zirvəsinin özünəməxsus yeri və əzəməti vardır" [Allahverdiyeva, 2023, s. 141-142].

Zəhra Allahverdiyevanın fikirləri Əlişir Nəvainin Nizami Gəncəvi ilə ideya və estetik baxımdan qurduğu əlaqəni, türkdilli poeziyanın tarixi inkişafında tutduğu mövqeyi və onun mənəvi-fəlsəfi irsinin dərinliyini elmi şəkildə əsaslandırmaqla yanaşı, bu irsin müasir dövrdə

necə yaşadıldığını da düşünməyə imkan verir. Məhz bu kontekstdə Azərbaycan nəvaişünaslığının müstəqillik dövründə qazandığı elmi nailiyyətlər xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə görkəmli alim, tərcüməçi və türkoloq Ramiz Əskərin fəaliyyəti diqqətəlayiqdir. Onun Nəvai irsinə yanaşması yalnız klassik mətnlərin tərcüməsi və təhlili ilə məhdudlaşmır, həm də türkdilli poeziyanın tarixi inkişaf xəttini, üslubi xüsusiyyətlərini və mədəniyyətlərarası əlaqələrini araşdırmaqla Nəvainin ədəbi-fəlsəfi irsini müasir elmi kontekstdə təqdim edir. Beləliklə, Allahverdiyevanın tarixi-poetik əsaslandırmaları ilə Ramiz Əskərin müasir elmi yanaşmaları bir-birini tamamlayaraq Əlişir Nəvainin ümumtürk ədəbiyyatındakı mövqeyini həm keçmişin, həm də bu günün prizmasından daha dolğun şəkildə təqdim edir.

Beş əsrdən artıqdır ki, Əlişir Nəvai türk poeziyasının səmalarında parlaq bir ulduz kimi işıq saçır. Onun irsi zamanın fövqündə dayanaraq, gələcək nəsillərə ilham verməyə davam edir. Nəvayi yalnız keçmişin deyil, həm də bu günün və sabahın şairidir [Əskər, 2021, s. 375].

ƏDƏBİYYAT

1. Allahverdiyeva, Z. Nizami Gəncəvi "Xəmsə"sinin Əlişir Nəvainin "Heyrətul-əbrar" və "Fərhad və Şirin" poemalarında təsiri. "Əlişir Nəvai və XXI əsr" mövzusunda beynəlxalq konfransın materialları. Daşkənd – Bakı, 2023.
2. Əskər, R. Əlişir Nəvayi: şəxsiyyəti və sənəti. Bakı: Elm və Təhsil, 2021
3. Bədəlova, T. Nizami xəzinəsi və Nəvai heyrəti. Müqayisəli ədəbiyyatşünaslıq, 2020, №1.
4. Ülvi, Almaz. Əlişir Nəvai və Azərbaycan. Müqayisəli Ədəbiyyatşünaslıq Beynəlxalq Elmi Jurnal. Azərbaycan-Özbək Ədəbi Əlaqələri Xüsusi Buraxılış. Bakı, 2020, №1.
5. Ülvi, Almaz. Dünya Ədəbiyyatına Əlişir Nəvai Töhfələri. Nizami Gəncəvi və Əlişir Nəvai: ənənə və novatorluq. Bakı, 2021.
6. Həbibbəyli, İ. Əlişir Nəvai: Nizami Gəncəvidən Füzuliyə uzanan poetik yol. Ədəbiyyatşünaslıq Araşdırmaları, 2017.
7. Nağıyeva, C. Əlişir Nəvai: Şərq poeziyasının zirvəsi. Azərbaycan ədəbiyyatında klassik irs, 2001.
8. Nəvai, Ə. Seçilmiş əsərləri. Bakı: Öndər nəşriyyatı, 2004.

***Хаяла ГУСЕЙНОВА***
***Доктор философии по филологии***

## КУЛЬТУРНО-ПОЭТИЧЕСКАЯ ИНТЕГРАЦИЯ АЛИШЕРА НАВОИ И АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ В КОНТЕКСТЕ ЛИТЕРАТУРНОГО НАСЛЕДИЯ НИЗАМИ ГЯНДЖЕВИ

***РЕЗЮМЕ***

*Ключевые слова:* Алишер Навои, Низами Гянджеви, чагатайский язык, «Хамса», литературная интеграция

Алишер Навои был не только основоположником чагатайской литературы и великим поэтом, но и выдающимся мыслителем, сыгравшим важную роль в развитии тюрко-исламской культуры XV века. Его литературное наследие внесло неоценимый вклад в обогащение национальной и общетюркской литературы, а также восточной исламской поэзии. Богатство идей, философская глубина и поэтическое мастерство, воплощённые в его произведениях, свидетельствуют о том, что Навои был не просто поэтом, но и многогранным носителем культурных ценностей.

Азербайджанская литература, и в особенности творчество Низами Гянджеви, сыграли важную роль в формировании художественно-эстетического мировоззрения Навои. Свои первые литературные вдохновения он получил из азербайджанской литературной традиции, приобрёл благодаря ей ценный художественный опыт и успешно отразил её влияние в собственном творчестве. Гуманистические идеалы, система высоких нравственных ценностей и традиция «Хамсы», заложенные Низами Гянджеви, стали одними из основных источников формирования поэтического наследия Навои. В то же время сам Навои выступал литературным наставником для азербайджанской литературы, а эти взаимные связи занимают особое место в азербайджанском литературоведении. Развивая литературные традиции Низами в тюркоязычной среде и обогащая их новыми художественными аспектами, Навои также внёс значительный вклад в укрепление азербайджано-узбекских литературных связей.

Занимая вершину общетюркской литературы после Низами Гянджеви и до Физули, Навои выступал интеллектуальным и эстетическим мостом между двумя великими поэтами. В этом отношении, продолжая классические поэтические традиции, заложенные Низами Гянджеви, он стал одним из важнейших представителей литературно-культурной преемственности, которая в конечном итоге привела к расцвету творчества Физули.

«Хамса» Навои отличается не только своей поэтической ценностью, но и этико-философским содержанием, сохраняющим свою актуальность на протяжении веков. Это произведение рассматривается как успешное продолжение традиции «Хамсы», основанной Низами Гянджеви, в тюркоязычной литературе. Выражая свои идеи и философские концепции на тюркском языке, Навои сумел соединить национальное самосознание с эстетической силой языка, что придало его литературному наследию особую уникальность. Кроме того, развивая универсальные гуманистические идеалы и систему высоких нравственных ценностей Низами в новом историко-культурном контексте, он вдохнул новую жизнь в общетюркскую литературную мысль. Его произведения, обогащённые суфийской духовностью, аллегорической образностью и широким интеллектуальным кругозором, содержат глубокие нравственные уроки для читателей. Эти особенности перекликаются с мудростью, духовным совершенством и гуманистическими идеалами, характерными для литературного наследия Низами Гянджеви, раскрывая интеллектуальную и эстетическую близость двух великих мастеров.

Деятельность Навои была значительной не только в литературной сфере, но и в области культурного развития, просвещения и государственного управления. Создавая школы, библиотеки и научные собрания, он внёс существенный вклад в расцвет культурной среды Герата. Навои призывал человечество к духовному совершенствованию, направлял людей на путь истины и продолжал традиции исламской философской мысли посредством своего самобытного художественного мастерства.

Интеллектуальные, эстетические и языковые связи, сформированные Навои, представляют собой важный этап в историческом развитии тюркоязычной поэзии. В конечном итоге Алишер Навои был не просто поэтом, но и символом духовного возрождения тюрко-исламской цивилизации и вершиной тюркского литературного самовыражения. Его литературное наследие сыграло незаменимую роль в обогащении национальной, региональной и общетюркской литературы, в развитии азербайджанского литературоведения и в общем прогрессе восточной поэзии.

***Khayala HUSEYNOVA***
***PhD in Philology***

## CULTURAL AND POETIC INTEGRATION BETWEEN ALISHER NAVOI AND AZERBAIJANI LITERATURE WITHIN THE FRAMEWORK OF NIZAMI GANJAVI'S LITERARY HERITAGE

### *SUMMARY*

*Keywords:* Alisher Navoi, Nizami Ganjavi, Chagatai, Khamsa, literary integration

Alisher Navoi was not only the founder of Chagatai literature and a great poet, but also a distinguished intellectual who played a significant role in the development of the Turkic-Islamic culture of the fifteenth century. His literary legacy made an invaluable contribution to the enrichment of national and pan-Turkic literature, as well as Eastern Islamic poetry. The richness of ideas, philosophical depth, and poetic mastery embodied in Navoi's works demonstrate that he was not merely a poet, but also a multifaceted bearer of cultural values.

Azerbaijani literature, and particularly the works of Nizami Ganjavi, played a crucial role in shaping Navoi's artistic and aesthetic worldview. He received his earliest literary inspirations from the Azerbaijani literary tradition, gained valuable artistic experience through it, and successfully reflected its influence in his own works. The humanistic ideals, the system of lofty moral values, and the Khamsa tradition established by Nizami Ganjavi became among the principal sources in the formation of Navoi's poetic heritage. At the same time, Navoi himself served as a literary mentor to Azerbaijani literature, and these mutual connections have occupied a special place in Azerbaijani literary scholarship. By developing Nizami's literary traditions within a Turkic-language environment and enriching them with new artistic dimensions, Navoi also contributed significantly to strengthening Azerbaijani-Uzbek literary relations.

Standing at the summit of pan-Turkic literature after Nizami Ganjavi and before Fuzuli, Navoi served as an intellectual and aesthetic bridge between the two great poets. In this respect, by continuing the classical poetic traditions established by Nizami Ganjavi, he emerged as one of the most important representatives of the literary and cultural continuum that ultimately led to the flourishing of Fuzuli's творчество.

Navoi's Khamsa is distinguished not only by its poetic value but also by its ethical and philosophical messages, which have preserved their relevance for centuries. This work is regarded as a successful continuation of the Khamsa tradition founded by Nizami Ganjavi within Turkic-language literature. By expressing his ideas and philosophical concepts in Turkish, Navoi combined national self-awareness with the aesthetic power of language, making his literary legacy unique. Furthermore, by developing Nizami's universal humanistic ideals and system of high moral values within a new historical and cultural context, he brought fresh vitality to pan-Turkic literary thought. His works, enriched by Sufi spirituality, allegorical expression, and broad intellectual horizons, offer profound moral lessons to readers. These characteristics resonate with the wisdom, spiritual perfection, and humanistic ideals that characterize Nizami Ganjavi's literary heritage, revealing the intellectual and aesthetic affinity between the two great masters.

Navoi's activities were remarkable not only in the literary sphere but also in the fields of cultural development, enlightenment, and statecraft. By establishing schools, libraries, and scholarly assemblies, he contributed significantly to the flourishing of the cultural environment of Herat. Navoi called upon humanity to strive for spiritual perfection, guided

people toward the path of truth, and continued Islamic philosophical concepts through his distinctive artistic craftsmanship.

The intellectual, aesthetic, and linguistic connections established by Navoi constitute a significant stage in the historical development of Turkic-language poetry. Ultimately, Alisher Navoi was not merely a poet but also a symbol of the spiritual renaissance of Turkic-Islamic civilization and the pinnacle of Turkic literary expression. His literary heritage played an indispensable role in enriching national, regional, and pan-Turkic literature, in advancing Azerbaijani literary studies, and in the overall development of Eastern poetry.

***Daxil oldu: 12.05.2026-cı il***